## HƏYAT VƏ FƏALİYYƏTİNİN ƏSAS TARİXLƏRİ

***Mustafa bəy Ağabəy oğlu Topçubaşov 1895-ci il avqustun 5-də Qərbi Azərbaycanın Göykümbət kədində anadan olmuşdur.***

| | |
|---|---|
| **1901** | O dövrdə yenicə yaranan, görkəmli Azərbaycan rəssamı Mirzə Qədim İrəvaninin nəvəsi Mirzə Rza Qədimovun azyaşlılar üçün açdığı məktəbə daxil olub. |
| **1904** | İbtidai təhsilini başa vuran Mustafa Topçubasov İrəvanda fəaliyyət göstərən rusdilli kişi gimnaziyasında orta təhsilini davam etdirib. |
| **1914** | Gimnaziyanı qızıl medalla bitirdikdən sonra Mustafa bəy Kiyev Dövlət Universitetinin Tibb fakültəsinə daxil olub. |
| **1919** | Təhsilini başa vuran gənc həkim Naxçıvan və Bakı xəstəxanalarında cərrahlıq edib. |
| **1920-1923** | Bakı Dövlət Universitetinin tibb fakültəsinin cərrahlıq klinikasında ordinator işləyib. Mustafa bəy BDU-nun tibb fakültəsində fəaliyyətə cəlb edilən ali tibb təhsilinə malik ilk milli kadr olub. |
| **1926** | Almaniyaya elmi ezamiyyətə göndərilən və oradan qayıtdıqdan sonra doktorluq dissertasiyasını müdafiə edən ilk milli kadrlardan biri kimi də iz qoyub. |
| **1923-1930** | BDU-nun tibb fakültə cərrahlığı klinikasında assistent işləmişdir. |
| **1930** | "Malyariya mənşəli splenomeqaliyanın klinikası, patologiyası və cərrahi müalicəsi" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, bu işin elmi əhəmiyyətinə görə Mustafa bəy Topçubaşova tibb elmləri doktoru alimlik dərəcəsi və professor adı verilmişdir. Eyni zamanda o, Azərbaycan Tibb Universitetinin cərrahiyyə kafedrasının müdiri seçilərək ömrünün sonuna qədər həmin vəzifəni şərəflə yerinə yetirmişdir. |
| **1937** | Dünya anesteziologiya elmi tarixində ilk dəfə olaraq orijinal keyitmə üsulunu – inyeksion efır-yağ narkozunu – analgeziya üsulunu kəşf etmişdir. |
| **1940** | Azərbaycanın Əməkdar elm xadimi adına layiq görülmüşdür. |
| **1943** | Stalin mükafatına layiq görülmüşdür. |
| **1945** | SSRİ Xalq Səhiyyə Komissarlığı Elmi Tibbi Şurası tərəfindən Farmakologiya Komitəsinin iclasında efır-yağ qarışığının "Analgezin" adı altında istehsal edilməsinə icazə verilmişdir. |
| **1945-1948** | Azərbaycan SSR Elmlər Akademiyasının **Eksperimental Tibb İnstitutunda direktor vəzifəsində çalışmışdır.** |

| | |
|---|---|
| **1945-1950** | Respublikanın baş cərrahı və Azərbaycan SSR Səhiyyə Nazirliyi Tibb Xidməti İdarəsinin sədri vəzifəsini yerinə yetirib.<br>Alimin yenidən yaradılmış Azərbaycan Elmlər Akademiyasına seçilmiş 15 görkəmli alimlərin sırasında yer almışdır. |
| **1951-1956** | Azərbaycan Elmlər Akademiyasının vitse-prezidenti olmuşdur. |
| **1947-1949** | Eksperimental Tibb İnstitutuna rəhbərlik etmişdir. |
| **1949** | SSRİ Tibb Akademiyasının müxbir üzvü, |
| **1960** | SSRİ Tibb Akademiyasının həqiqi üzvü seçilmişdir. |
| **1951** | Mustafa bəy Topçubaşov həyatının sonuna qədər Azərbaycan Elmlər Akademiyası prezidentinin müavini vəzifəsində işləmişdir.<br>Bu ildən ömrünün sonunadək Azərbaycan Elmlər Akademiyasının vitse-prezidenti olub. |
| **1952** | Bolqarıstan Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir. |
| **1954** | XI Lissabon konqresində Ümumdünya Cərrahlar Assosiasiyasının üzvü seçilmişdir. |
| **1955-1959** | Azərbaycan SSR Ali Sovetinin sədri olmuşdur. |
| **1956** | Berlində Cərrahların Beynəlxalq Konqresində sovet tibb elmini təmsil edən görkəmli alim, novator-cərrah kimi çıxış edib. |
| **1959** | Ümumdünya Sülh Şurasının gümüş medalına layiq görülmüşdür. |
| **1960** | SSRİ Tibb Elmləri Akademiyasının akademiki seçilmişdir. |
| **1964** | Tibb elminin inkişafındakı, xüsusilə analgezin inyeksiya üsulunun işlənib hazırlanmasındakı xidmətləri A.V.Vişnevski adına xatirə medalı ilə təltif olunmuşdur. |
| **1967-1971** | Azərbaycan SSR Ali Sovetinin sədri olmuşdur. |
| **1969-1981** | Azərbaycan Elmlər Akademiyasının vitse-prezidenti olmuşdur. |
| **1975** | 80 illik yubileyi ərəfəsində SSRİ-nin ali mükafatına - Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür. |
| **1981** | Noyabr ayının 20-də Bakı şəhərində vəfat edib, Fəxri Xiyabanda dəfn olunmuşdur. |
| **1995** | 31 iyul tarixində Ümummilli liderimiz dahi Heydər Əliyev Mustafa Ağabəy oğlu Topçubaşovun anadan olmasının 100 illik yubileyinin dövlət səviyyəsində keçirilməsi haqqında sərəncam imzalamışdır. |

| | |
|---|---|
| | Anadan olmasının 100 illiyi münasibətilə ATU-nun III Cərrahi xəstəliklər kafedrasında - 51 il çalışdığı iş otağında (Əfəndiyev adına 2 saylı şəhər xəstəxanası) "Xatirə Muzeyi"nin təntənəli açılışı olub. |
| **2025** | 10 iyun tarixində Akademik Mustafa Topçubaşovun 130 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalamışdır. |